## 2019-cu il Azərbaycanda gəlmə turizmi üzrə rekord il olacaq

2019-cu ilin yanvar-oktyabr ayları ərzində Azərbaycanı ziyarət edənlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 10.9% və ya 264 min nəfər artaraq təqribən 2.7 milyona çatıb. Bu da 2019-cu ildə Azərbaycana gələn xarici vətəndaşların sayının 3 milyondan artıq olacağına əsas verir. Qonaqların böyük hissəsi Rusiyadan (təqribən 800 min nəfər) və Gürcüstandan (təqribən 600 min nəfər) gəlib. Bu iki ölkədən gələnlər Azərbaycanı ziyarət edən qonaqların 51.9%-ni təşkil edir.

Dövr ərzində Gürcüstandan gələnlərin sayı 104 min və ya 21.3% artıb. Mərkəzi və Cənubi Asiyadan gələn xarici vətəndaşların sayında da müvafiq olaraq 47.9% və 37.8% artım müşahidə edilib. Cənubi Asiyanın ən iri bazarları 51 min nəfərlə Hindistan (66.6% artım) və 38 min nəfərlə Pakistandır (13.2% artım). Mərkəzi Asiyadan gələnlərin əksəriyyətini Türkmənistan (44.5 min; 98.7% artım) və Qazaxıstan (40 min; 24.5% artım) vətəndaşları təşkil edib. Türkiyədən gələnlərin sayı 18.7 min və ya 7.7% artaraq 262 min nəfər təşkil edib. Yaxın Şərq ölkələrindən Səudiyyə Ərəbistanından gələn xarici vətəndaşların sayı 98 min nəfər təşkil edib ki, bu da 44.1% artım hesab edilir.

**Qrafik 1: 2019 və 2018-ci ilin yanvar-oktyabr ayları ərzində 7 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**




Yanvar-oktyabr dövrü ərzində turizm nümayəndəliklərinin olduğu ölkələrdən (Çin, Hindistan, Rusiya, Almaniya, Səudiyyə Ərəbistanı və BƏƏ) gələnlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 86 min və ya 9% artaraq 104.2 min nəfər təşkil edib. Ən yüksək artım Hindistan, Çin və Səudiyyə Ərəbistanından gələnlər arasında müşahidə edilib.

2019-cu ilin oktyabr ayı ərzində Azərbaycanı 264 min nəfər xarici vətəndaş ziyarət edib ki, bu da 52 min nəfər və ya 24.7% artım deməkdir. Ən yüksək artım 74.3%-lə İran və 65.1%-lə Orta Asiya ölkələri arasında qeydə alınıb. Mütləq sayda ən yüksək artım isə Gürcüstan (9.6 min nəfər və ya 18% artım) və Rusiyadan (9.2 min nəfər və ya 14.4% artım) gələnlər arasında müşahidə edilib. Mərkəzi Asiya ölkələrindən Türkmənistandan olan qonaqların sayı rekord 100.4% və ya 5.4 min nəfər artıb. Cənubi Asiya ölkələri arasında 41.7%-lə Hindistandan (cəmi 5.4 min nəfər), Yaxın Şərq ölkələri arasında isə 83.7%-lə Səudiyyə Ərəbistanından (cəmi 5.2 min nəfər) gələn qonaqlar

arasında kəskin artım qeydə alınıb. Yaxın Şərq və Cənubi Asiyadan səyahət edənlərin sayı müvafiq olaraq 29.1% və 35.8% artaraq 23.4 min və 11.2 min nəfərə çatıb.

**Qrafik 2: 2019 və 2018-ci ilin oktyabr ayında 7 ölkədən və regiondan gəlmiş xarici səyahətçilər (min)**



**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Sərhəd Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

Cədvəl 1: 2019-cu ilin oktyabr ayında və 2019-cu ilin yanvar-oktyabr aylarında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2018-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2019 | | 2018 | |
|---|---|---|---|---|
| | Oktyabr | Yanvar-Oktyabr | Oktyabr | Yanvar-Oktyabr |
| Rusiya | 72 905 | 797 635 | 63 745 | 751 908 |
| Gürcüstan | 62 603 | 593 476 | 53 047 | 489 408 |
| Türkiyə | 28 506 | 261 828 | 22 865 | 243 097 |
| Yaxın Şərq | 23 356 | 314 482 | 18 088 | 329 860 |
| İran | 21 757 | 219 292 | 12 485 | 214 990 |
| Mərkəzi Asiya | 13 419 | 110 374 | 8 127 | 74 632 |
| Cənubi Asiya | 11 189 | 95 437 | 8 242 | 69 281 |
| Şərqi Avropa | 9 931 | 93 766 | 8 817 | 85 749 |
| Qərbi Avropa | 9 258 | 102 141 | 8 830 | 84 758 |
| Şimal-şərqi Asiya | 4 294 | 37 903 | 3 134 | 26 733 |
| Amerika | 2 821 | 25 684 | 2 261 | 23 340 |
| Cənub-şərqi Asiya | 1 681 | 10 240 | 839 | 7 684 |
| Afrika | 1 070 | 8 549 | 625 | 6 992 |
| Digər | 1 288 | 9 125 | 698 | 7 491 |
| **CƏMİ** | **264 078** | **2 679 932** | **211 803** | **2 415 923** |